Mehdiyev Həmid Mübah oğlu,
Milli Aviasiya Akademiyasının "Hüquq" kafedrasının müəllimi,
hüquq elmləri üzrə fəlsəfə doktoru
Ünvan: Bakı şəhəri, Mərdəkan prospekti 30, AZ10145
E-poçt: dr.hamidmehdi.attorney@gmail.com
https://orcid.org/my-orcid?orcid=0000-0002-1586-1140

UOT 342; 34.06; 34.07
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.183

SÜNİ İNTELLEKT TEXNOLOGIYALARININ KONSTİTUSION HÜQUQLARA TƏSİRİ: BEYNƏLXALQ HÜQUQİ STANDARTLAR ƏSASINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ KONTEKSTİNDƏ MÜQAYİSƏLİ HÜQUQİ TƏHLİL

Açar sözlər: *Süni intellekt, Konstitusion hüquqlar, rəqəmsal konstitusionalizm, beynəlxalq hüquqi standartlar, beynəlxalq təşkilatlar, milli qanunvericilik, müqayisəli hüquqi təhlil.*

Ключевые слова: *Искусственный интеллект, конституционные права, цифровой конституционализм, международно-правовые стандарты, международные организации, национальное законодательство, сравнительно-правовой анализ.*

Keywords: *Artificial intelligence, constitutional rights, digital constitutionalism, international legal standards, international organizations, national legislation, comparative legal analysis.*

Giriş

Xüsusilə XXI əsrin ikinci onilliyində süni intellekt (bundan sonra – Sİ), alqoritm sistemləri, rəqəmsal inkişaf gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Sİ sadəcə texnoloji innovasiya yox, habelə dövlət idarəetməsi, məhkəmə hakimiyyətinin fəaliyyəti, eləcə də, təhsil, maliyyə, səhiyyə və bir çox ictimai münasibətlərin hər bir istiqamətinə sirayət edə bilən multifunksional fenomenə çevrilmişdir. [14, s. 1-31]

Müasir Sİ sistemləri eyni anda milyardlarla informasiya emal edərək bəşəri qərarlara dəstək verə, bəzi hallarda isə həmin qərarları bütövlüklə və yaxud qismən əvəzləmək iqtidarına malik ola bilir. Qeyd olunan xüsusiyyətlər idarəetmədə səmərəlilik əmsalına müsbət təsir göstərsə də, özü ilə birgə əsas insan hüquq və azadlıqlarının realizəsi nöqteyi-nəzərindən müəyyən hüquqi problemlər gətirə bilir. Belə ki, şəxsi və bank məlumatlarının, biometrik identifikasiyanın, alqoritmlərin və dataların gizli və qeyri-iradi toplanaraq Sİ texnologiyaları vasitəsilə müdaxilə olunması, nüsxələnməsi və hətta saxtalaşdırılması (deepfake) konstitusion hüquqların müasir reallıq fonunda yenidən gözdən keçirilməsini şərtləndirir. [16, s. 27-35]

Məqalənin aktuallığını şərtləndirən müəyyən faktor və indikatorlar vardır. Əvvəla, texnoloji tərəqqənin vüsət alması ilə fundamental konstitusion hüquqlara qarşı potensial təhdidlərin hüquqi müstəvidə qiymətləndirilməsi və hüquqların müdaifəsi ilə Sİ texnologiyalarının tətbiqi arasında hüquqi balansın qorunmasının vacibliyini qeyd etmək lazımdır. Dolayısı ilə, beynəlxalq hüquqi müstəvidə müvafiq istiqamətlərdə presedentlər, qəbul və tətbiq edilən normalar qlobal rəqəmsal çağırışların tələbləri ilə təşəkkül tapmışdır. Qeyd olunan sahənin inkişafı milli qanunvericilik səviyyəsində də hüquqi təkmilləşdirmə və müvafiq normayaratma fəaliyyətinin aparılmasını qaçılmaz qılır. Həmçinin müasir hüquq nəzəriyyətində rəqəmsal konstitusionalizm və bir sıra yeni qavramlarının tədqiqi və beynəlxalq təcrübənin hüquq sistemimizə inteqrasiya edilməsinə tələbatın olması həm nəzəri, həm praktiki aspektdən müstəsna aktuallıq kəsb edir.

Tədqiqatın məqsədi Sİ texnologiyalarının sürətli inkişafı və ümumbəşəri xarakter alması fonunda yaranan rəqəmsal reallıqların həm Azərbaycan Respublikası Konstitusiyasında və qanunvericilikdə təsbit olunun bəzi hüquq və azadlıqlarına dair normalara təsir imkanlarının təhlilini aparmaq, həm də mövcud qanunvericilik mexanizlərini və beynəlxalq hüquqi standartları müqayisəli şəkildə araşdırmaqdır.

Son illərdə beynəlxalq təşkilat və qurumlar bu kimi təhdidləri nəzərə alaraq Sİ-nin hüquqi nizamlanması yönündə zəruri addımlar atmışdır. Məsələn, Avropa Birliyinin 2024-cü ildə "Sİ Aktı"nı qəbul edərək manipulyasiya, ictimai təhlükəsizlik və digər sahələr üzrə risklərin qarşısının alınması əsaslı yanaşma nümayiş etdirmiş və riskli Sİ sistemləri üçün labüd hüquqi normativ müəyyən etmişdir.[13, s.1-6; s.106-109; s.110-114; s.115-139] Avropa Parlamenti və Avropa Şurasının Sİ, İnsan hüquq və azadlıqları, demokratiya və Qanunun aliliyi haqqında 2024-cü ildə qüvvəyə minən Çərçivə Konvensiyası bu sahədə qəbul edilən ilk mütərəqqi beynəlxalq müqavilə kimi dövlətlərin insan hüquq və azadlıqları üzrə öhdəliklərini texnoloji konteksdə təsbit etmişdir. [15, s.4-13]

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) 2019-cu ildə üzv və tərəfdaş dövlətlər üçün effektiv hüquqi idarəetmə mexanizmlərinin yaradılmasını, Sİ sahəsində insan kapitalının dəstəklənməsi, innovativ elmi tədqiqatların stimullaşdırılması və digər tövsiyələri, habelə mötəbər beynəlxalq siyasi prinsipləri özündə ehtiva edən "Süni İntellekt prinsipləri"ni qəbul etmişdir.[12, s .3-8]

UNESCO-nun 2021-ci ildə yekdilliklə qəbul etdiyi "Sİ-in etikası üzrə tövsiyə sənədi" bu mövzuda ilk qlobal yumşaq hüquq (soft-law) səciyyəsi daşıyan ümumdünya standartları ehtiva edən sənəd sayılır. Sözügedən sənədin əsas mahiyyəti Sİ texnologiyalarının yalnız dayanıqlı və inklyüziv inkişafı, hüququn aliliyini, o cümlədən insan hüquq və ləyaqətinin qorunmasını təmin etməkdən ibarət olduğunu əks etdirir. UNESCO-ya üzv dövlətlərə Sİ savadlılığını artırmağı, etik qiymətləndirmə meyarları yaratmağı, milli tədbirlər planı hazırlamağı, şəxsi məlumatların mühafizəsini möhkəmləndirməyi tövsiyə edən bu beynəlxalq sənəd – süni intellektin tərəqqisini ancaq iqtisadi və texnoloji aspektdən yox, etik prinsiplər, sosial ədalət və ümumilikdə insan hüquq və azadlıqları kontekstində nizamlamağa dair nümunəvi normalar toplusu hesab olunur. [16, s .3-8]

Birləşmiş Millətlər Təşkilatının (BMT) süni intellektin qlobal idarəetmə istiqamətində hüquqi, etik, sosial və texniki aspektlərinin çoxyönlü qiymətləndirilməsi üçün 39 müstəqil ekspertdən ibarət tərkibdə 2023-cü ildə yaratdığı "Sİ üzrə ali səviyyəli məşvərət orqanı" beynəlxalq müstəvidə

dayanıqlı inkişafa, təhlükəsizliyə və insan hüquqlarının qorunmasına əsaslanan unikal idarəetmə modelinin qəbul edilməsi təşəbbüsünü irəli sürmüşdür. Qurumun fəaliyyətinin "Bəşəriyyət naminə Sİ idarəolunması" adlı yekun hesabatı 2024-cü ildə təqdim edilmiş, bir sıra mühüm qlobal Sİ mexanizmlərinin, idarəetmə sistemlərinin yaradılması, dövlətlər arasında Sİ siyasətinin əlaqələndirilməsi, texniki imkanların genişləndirilməsi, risklərin qiymətləndirilməsi, dövlətlərarası informasiya və praktiki təcrübə mübadiləsinin gücləndirilməsi və s. kimi prioritet məsələlər qeyd olunmuşdur.[8, s.4-7; s.8-17; s.60-89]

Yuxarıda adları çəkilən beynəlxalq sənədlər Sİ sahəsində hüquqi, texniki və sistematik tənzimləmənin formalaşmasına təkan verən ən mühüm sənədlər kimi xarakterizə olunur. Bununla belə, bütün bu beynəlxalq aktların ortaq xüsusiyyətlərindən biri də odur ki, müstəqil hüquq subyekti qismində süni intellekt onların heç biri tərəfindən qəbul olunmur, insan fəaliyyəti və nəzarəti nəticəsində meydana gələn texnoloji alət və ya vasitə kimi səciyyələndirilir. Məhz bu səbəbdən, Sİ sistemlərinin vasitəsilə yaranan hüquqi nəticə və öhdəliklərə görə məsuliyyət nəticə etibarilə, fərdlərin, hüquqi şəxslərin və ya dövlətin üzərinə düşür ki, bu yanaşma rəqəmsal konstitusionalizmin mahiyyətinə və hüququn "insan mərkəzli" xarakterinə uyğunluğunun təzahürüdür.[9, s.298-300; s.309-310]

Əgər klassik konstitusiya hüququna istinad etsək, hüquqi müdafiə zərurəti əsasən hüquqi məhdudlaşdırma və ya hüquqlara dövlət hakimiyyəti tərəfindən müdaxilənin olduğu təqdirdə zəruri hal alırdısa, artıq müasir zamanda konstitusiya hüququnun əsas məqsəd və vəzifələrindən biri təkcə dövlətin deyil, əlavə olaraq Sİ texnologiyaları və alqoritmik idarəetmənin hüquq və azadlıqlara potensial müdaxiləsinin hüquqi hüdudlarını müəyyənləşdirməkdir. Çünki rəqəmsal inkişaf və Sİ ənənəvi konstitusionalizm qavramını dəyişməyə sövq edən faktorlara çevrilmişdir. Günümüzdə, şəxsin hüquq və azadlıqlarına təsir etmə yalnız dövlət qurumlarından deyil, rəqəmsal platformalar, alqoritmik sistemlər, texnologiya sahəsində hüquqi şəxslər və digər individuallar tərəfindən baş verə bilir. Bunun nəticəsində, beynəlxalq hüquq ədəbiyyatına yeni termin "digital constitutionalism" yəni, rəqəmsal konstitusionalizm anlayışı daxil olmuşdur. Bu qavram Sİ-nin və rəqəmsal texnoloji imkanların sürətlə təkmilləşməsi fonunda konstitusiya hüququnda əsas prinsiplərin məzmunca yeniləndiyini əks etdirir. [6, s.1-8; s.18-32; s.63-71]

Müasir dövrdə, konstitusiya hüququ yalnız fərd və ya cəmiyyət ilə dövlət arasında ictimai münasibətləri deyil, şəxs-texnologiya-dövlət üçbucağında təşəkkül tapan münasibətləri də əhatə etməlidir.[7, s.3-18] İrəli sürülən bu fikirdən belə qənaətə gəlmək olar ki, Sİ və rəqəmsal texnologiyanın sürətli inkişafı sayəsində nəticə konstitusiya hüququnun predmet dairəsi nəticə etibarilə genişlənmişdir.

Beynəlxalq hüquqi doktrinanın inkişaf tendensiyası onu deməyə əsas verir ki, Sİ hüququ artıq ayrı bir texnoloji institut kimi deyil, konstitusiya hüququ, inzibati hüququ, insan hüquqlarının kəsişmə nöqtəsində inkişaf edən müasir kompleks hüquq sahəsi mövqeyində yer tutmağa başlayıb. Buna görə də, Sİ və texnoloji alətlərin istifadəsi və tətbiqinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunan əsas hüquq və azadlıqlara nə dərəcədə təsir etməsinin hüquqi aspektdən tədqiq olunması nəzəri və praktiki cəhətdən aktual mahiyyət daşıyır.

Sİ inkişafı və tətbiqi imkanlarının genişlənməsi ilə Konstitusiyaya dəyişlik edilməsi qaçınılmaz olmuş, müvafiq maddəyə "elektron forma" "in-

formasiya texnologiyaları" kimi ifadələr əlavə edilmişdir. Konstitusiyamızda təsbit olunan şəxsi toxunulmazlıq hüququna (maddə 32) əsasən, hər kəsə bu hüququ tanınır. Heç kimin razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Həmin maddənin 7-ci hissəsində təsbit olunmuşdur ki, məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz. [2, m.7; m.32]

Ötən dövrlərə nisbətdə şəxsi həyatın toxunulmazlığı daha fərqli hüquqi məzmun qazanmışdır ki, bu da öz növbəsində yuxarıda qeyd olunan normanın konstitusion-hüquqi təminatını şərtləndirir. Məsələn, barmaq izi tanıma, üztanıma (face-ID), vokal identifikasiya, məkan aşkarlama funksionallığı və digər müxtəlif biometrik emal texnologiyaları insanlar barədə müəyyən informasiyaların avtomatik emalına imkan yaratmışdır. [5, s.111-135]

2008-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) S. and Marper v. UK işi nəticə etibarilə təsdiq edir ki, biometrik, habelə DNT məlumatların müddətsiz və əsassız saxlanılması belə şəxsi toxunulmazlıq hüququna ziddir. AİHM-in qərarında ələlxüsus bəyan edilmişdir ki, hətta dövlət orqanlarının bu cür yanaşması Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsinin tələbinin pozulmasıdır. Bu qəbildən olan məlumatlar (datalar) yüksək həssas kateqoriyaya aid edilməli, onların toplanması, qorunması, ötürülməsi, saxlanılması mütənasiblik, qanunçuluq və zərurilik prinsipləri əsasında həyata keçirilməlidir. Özəlliklə, Avropa İttifaqının "Sİ Aktı" fərdi biometrik məlumatların emalı və saxlanılmasının yüksək risk qrupuna aidiyyətini diqqətə çatdıraraq, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, biometrik eyniləşdirmə vasitə və sistemlərinin istifadəsini ictimaiyyətə açıq yerlərdə qadağan edir. [3, s.20-42]

Bununla da, "Sİ Aktı" və AİHM-in presedent hüququ fərdi informasiyanın əldə edilməsi, emalı, saxlanılması, ötürülməsində şəxsi toxunulmazlıq hüququnu ümdə məfhum kimi tanıyır, qəbul edir və Sİ-in tətbiqinin konstitusion hüquqların qorunmasıyla tarazlaşdırılması tələbini qoyur.

Konstitusiyamızın 47-ci və 50-ci maddələrində müvafiq olaraq fikir və söz azadlığı və məlumat azadlığı ilə bağlı normalar təsbit olunmuşdur. [2, m.47; m.50] Generativ, yəni yaradıcı Sİ sistemləri bir yandan istənilən növ (foto, video, audio, mətn və s.) məlumatlara əlçatanlığı təmin edir, başqa aspektdən isə təhrif olunmuş və saxta məlumat, foto-video və digər növ materialların asanlıqla ərsəyə gətirilməsi neqativ və manipulyativ ictimai rəy formalaşdırılması risklərini özü ilə gətirir. Bunlarla yanaşı, günümüzdə Sİ-in nüfuzetmə əhatə dairəsinin həcmi limitləri aşdığından Konstitusiyamızın 51-ci maddəsində təsbit olunan yaradıcılıq azadlığından sui-istifadə və başqasının intellektual fəaliyyətindən icazəsiz istifadə edilməsi halları da, 30-cu maddədə digər bir konstitusion hüquqlardan biri kimi tanınan əqli mülkiyyət hüquqlarının pozulmasına səbəb ola bilir. [2, m.30; m.51]

Yaradıcı Sİ alətləri sayəsində istənilən kateqoriya kontentin yaradılması, paylaşılması və istifadəsi üsullarını əhəmiyyətli dərəcədə dəyişmişdir. Təsadüfi deyildir ki, dinamik Sİ və texnologiya çağına "ayaq uydurmaq" zərurəti cəmiyyət ilə birgə qanunvericiliyə də yansıyır. Belə ki, 21 aprel 2026-cı il tarixli Azərbaycan Respulikasının Qanunu ilə Cinayət və Cinayət-

Prosessual Məcəllələrinə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarına Sİ-in tətbiqi və istifadəsi ilə əlaqədar əlavə və dəyişikliklər edilmişdir. [17, s.1-3]

Cinayət Məcəlləsinə Qanunsuz olaraq süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə foto, video və ya audio materialları (habelə, pornoqrafik və ya seksual məzmunlu) hazırlama və ya yayma 148-2 və 242-1 maddələri əlavə edilmişdir. [1, m.148; m.242-1]

Yuxarıda adları qeyd olunan digər normativ hüquqi aktlara da Sİ texnologiyaları vasitəsilə hazırlanmış materialların şəxsin razılığı olmadan, onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə hazırlanmış reallığı əks etdirməyən, yaxud belə texnologiyalar (proqram təminatları) vasitəsilə hazırlanmış pornoqrafik və ya seksual məzmunlu foto, video və ya audio materialların yayılmasına yol verilməməsinə dair imperativ normalar daxil edilmişdir. [10, m. 13-2.3.9-1; 11, m. 14.1.13-1] Həmçinin, Sİ texnologiyalarından istifadə nəticəsində yaradılmış materiallar kütləvi nümayiş etdirildikdə, belə texnologiyalardan istifadə edilməklə hazırlandığını aydın şəkildə göstərən və asanlıqla görünən nişanlanma ilə təmin olunmasında dair tələb də təsbit edilmişdir. [10, m. 13-2.7]

Nəticə

Aparılan tədqiqat göstərir ki, Sİ texnologiyalarının qlobal miqyasda inkişafı və ictimai münasibətlərin bütün sahələrinə nüfuz etməsi ənənəvi hüquq institutlarının, xüsusilə konstitusiya hüququnun predmetində paradiqma dəyişikliyinə səbəb olmuşdur. Bu da öz növbəsində rəqəmsal konstitusionalizm kimi anlayışların yaranmasını şərtləndirmiş, Sİ və onun istifadəsindən doğan hüquq normalarının yerli və beynəlxalq müstəvidə islahatların aparılmasını zəruri hala gətirmişdir.

Hesab edirəm ki, Sİ texnologiyalarından istifadə və onun tətbiqindən qaynaqlanan hüquqi mübahisələrin çoxalması yaxın gələcəkdə həm beynəlxalq, həm milli müstəvisində praktiki məhkəmə təcrübəsinin, habelə normayaratma fəaliyyətinin yeni inkişaf xətti izləməsi ilə nəticələnəcəkdir. Bu prizmadan, hüquqmühafizə orqanlarının, qanunvericilik və məhkəmə hakimiyyətinin, vəkillərin və digər hüquqi subyektlərin Sİ texnologiyalarının səbəb ola biləcəyi hüquqi risklərin və xüsusiyyətlərin təhlili, bu sahədə beynəlxalq təcrübənin tətbiqinin mütəmadi öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, rəqəmsal transformasiya və Sİ texnologiyaların təkamülü bəşəri faktorun, həmçinin insan hüquq və azadlıqlarının təsir imkanlarını və dəyərini nəinki azaldır, hətta onların hüquqi müdafiəsini zəruri və qaçılmaz edir. Gələcəkdə Konstitusiya Məhkəməsi və Ali Məhkəmənin qərarlarında Sİ texnologiyalarının insan hüquq və azadlıqlarına təsiri hüquqi baxımdan dəyərləndirilərkən həm beynəlxalq presedentlərdən yaranan nəticələrin analogiya üzrə tətbiqi, həm də beynəlxalq hüquqi normalara istinad edilməsi hüquqi müəyyənlik və vahid məhkəmə təcrübəsinin təkmilləşdirilməsinə töhfə verə bilər. [4, m. 11-35]

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
2. Azərbaycan Respublikasının Konstitusiyası
3. Case of S. and MARPER v. THE UNITED KINGDOM, (2008)
4. CEPEJ European Ethical Charter on the use of artificial intelligence (AI) in judicial systems and their environment, (2018)
5. Daniel J. Solove, UNDERSTANDING PRIVACY, GDPR AI Act, (Harvard University Press, 2008)
6. Edoardo Celeste, Digital Constitutionalism: The Role of Internet Bills of Rights, (Routledge, 2022)
7. Giovanni De Gregorio, Digital Constitutionalism in Europe (Cambridge University Press, 2022)
8. High-level Advisory Body on AI's Final Report, "Governing AI for Humanity", (2024)
9. Iglesias Keller, Clara; Pereira, Jane Reis G, Digital constitutionalism as an online speech governance framework: A critical approach, (2025)
10. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" haqqında Azərbaycan Respublikasının Qanunu
11. Media haqqında" Azərbaycan Respublikasının Qanunu
12. OECD, OECD AI Principles, (2019)
13. Regulation (EU) 2024/1689 of the European Parliament and of the Council of 13 June 2024 laying down harmonised rules on artificial intelligence and amending Regulations (EC), Regulation - EU - 2024/1689 - EN - EUR-Lex, (2024)
14. Stuart Russell & Peter Norvig–Artificial Intelligence: A Modern Approach, Global Edition, 4ed, (2021)
15. The Framework Convention on Artificial Intelligence, (2024)
16. UNESCO, Recommendation on the Ethics of Artificial Intelligence - UNESCO Digital Library, (2021)
17. https://e-qanun.az/framework/61783

Мехдиев Гамид Мубах оглу,
преподаватель кафедры «Правоведение»
Национальной академии авиации,
доктор философии по праву

ВЛИЯНИЕ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА НА КОНСТИТУЦИОННЫЕ ПРАВА: СРАВНИТЕЛЬНО-ПРАВОВОЙ АНАЛИЗ В КОНТЕКСТЕ ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ НА ОСНОВЕ МЕЖДУНАРОДНЫХ ПРАВОВЫХ СТАНДАРТОВ

РЕЗЮМЕ

Динамичное развитие технологий искусственного интеллекта, ставших неотъемлемой частью современной эпохи и нашей повседневной жизни, а также их значительная имплементация во многие сферы общественных отношений создали новые вызовы для правовой защиты прав и свобод человека. В данной статье исследуется влияние инструментов ИИ на определенные фундаментальные конституционные права. В процессе научного исследования с использованием сравнительно-правового метода был проведен анализ документов, принятых международными организациями, прецедентов ЕСПЧ, а также норм Конституции Азербайджанской Республики и национального законодательства. В статье рассматриваются перспективы вклада международных правовых стандартов в развитие законодательной системы Азербайджанской Республики, а также сформулированы научные выводы о их значении для обеспечения правовой определенности и формирования единой судебной практики.

Mehdiyev Hamid Mubah,
PhD in Law, Lecturer, Department of Law,
National Aviation Academy

THE IMPACT OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES ON CONSTITUTIONAL RIGHTS: A COMPARATIVE LEGAL ANALYSIS WITHIN THE CONTEXT OF THE LEGISLATION OF THE REPUBLIC OF AZERBAIJAN BASED ON INTERNATIONAL LEGAL STANDARDS

SUMMARY

The dynamic development and widespread implementation of Artificial Intelligence technologies—which have become an integral part of modern times and our daily lives—across most spheres of social interaction have given rise to new challenges regarding the legal protection of human rights and freedoms. This article examines the impact of AI tools on certain fundamental constitutional rights. The study employs a comparative legal analysis of documents adopted by international organizations, case law from the European Court of Human Rights (ECHR), and the Constitution and domestic legislation of the Republic of Azerbaijan. The article discusses the potential contribution of international legal standards to the development of Azerbaijan's legislative system and presents findings regarding their significance for ensuring legal certainty and establishing consistent judicial practice.

Redaksiyaya daxilolma tarixi: 26.07. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 09.08. 2026
Çapa qəbul olunma tarixi: 23.08.2026